UOT 81
https://doi.org/10.59849/2311-8482.2025.4.151

AYTƏN MÜSEYİBLİ *

# TÜRK DİLLƏRİNDƏ XÜSUSİLƏŞMƏ VƏ HƏMHÜDUD KATEQORİYALAR (MÜQAYİSƏLİ ASPEKTƏ)

*Məqalədə türk və Azərbaycan dilində xüsusiləşmiş üzvlü cümlələrin qoşulmadan, parselyasiyadan, inversiyadan, əlavədən, konversiyadan və s. fərqləndirən şərait və səbəblər müəyyənləşdirilir. Təsdiq olunur ki, bu həmhüdud kateqoriyalar (qoşulma və cümlənin xüsusiləşmiş üzvləri), hər şeydən öncə, verilən informasiyanın emfatik ayrılmasına xidmət edir. Məqalədə həmin kateqoriyalar arasındakı prinsipial ayrılmalar göstərilir. Bu fərqlər onların funksiyalarına müəyyənləşir. Yəni xüsusiləşmiş üzvlərin semantikasına polipredikativlik xas olduğu halda, parselyasiya və qoşulmalar bütöv formada predikativlik ifadə edir.*

***Açar sözlər:*** *xüsusiləşmə, həmhüdud kateqoriyalar, qoşulmalar, parselyasiya hadisəsi, inversiya.*

Bu gün oğuz qrupu türk dillərinin sintaksisi, o cümlədən xüsusiləşmə mövzusu hərtərəfli öyrənilməkdədir. Xüsusiləşmə təkcə bir, ayrıca kateqoriya kimi deyil, həm də həmin kateqoriyaya yaxın, oxşar olan kateqoriyalar da qarşılaşdırılır, müqayisə edilir, ümumi və fərqli xüsusiyyətlər aşkar olunur. Bu istiqamət oguz qrupu sintaksisinin bir çox vacib məsələlərini də kompleks biçimdə tədqiq etməyə imkan verir. Amma bu məsələnin tam həlli dərin və əhatəli tədqiqatlar tələb edir. Həmhüdud məsələlərin öyrənilməsini aktual saymaq olar: xüsusiləşmə və parselyasiya hadisəsi, xüsusiləşmə və qoşulma cümlələr, onların dil strukturunda yeri və mövqeyi, təbiəti, obyekti, istiqamətləri, sərhədləri, invariantlıq, sintaktik variantlıq və sinonimlik, ümumiyyətlə, cümlə üzvlərinin struktur məsələləri, müxtəlif sintaktk vahidlərin sərhədləri və s.

Bu aktual sintaktik məsələlərin hər birində dil vahidinin kateqorial mənası aşkar olunur. Kateqorial məna sintaktik vahidlərin *"mənası üzərində yüksələn ümumiləşmiş mənadır"* **(1, s.258 (656 səh.)**

Həmin məna, sözsüz, həmhüdud kateqoriyaları birləşdirir, bir araya gətirir. Güman etmək olar ki, kateqoriyalar, ələlxüsus da sintaktik kateqoriyalar yüksək mücərrəd təfəkkürün məhsulu kimi ortaya çıxmışdır.

**Xüsusiləşmə** özü bir qrammatik, sintaktik, eləcə də funksional-semantik kateqoriyadır. Çünki bu kateqoriya öncə şzünəməxsus qrammatik şəraitdə formalaşır. V.Vinoqradovun təbirincə desək, *"qrammatika yalnız hər hamsı bir ümumxalq dilinə xas olan sintaktik vahidin strukturunu, onların tipik formalarını tədqiq edir"* **(2, c.3)**

Qohum dillərdə xüsusləşmənin mahiyyətini, struktur xüsusiyyətlərini, qurulma mexanizmini, ayrılmanı əlaqələndirən vasitələri öyrənəndən sonra onun digər sintaktik vahidlərilə bağlı sərhədlərini müəyyənləşdirmək vəzifəsi meydana çıxır. Yəni digər uyğun hadisələrlə oxşar və fərqli xüsusiyyətlər, onların bir-birindən fərqli struktur-semantik və funksional imkanları və s. öyrənilməlidir.

Bu yolla türk dillərinin sintaktik quruluşu, elmi sintaksisi haqqında tam təsəvvür yaratmaq mümkündür. Həmin məsələlərin gələcəkdə kompleks öyrənilməsi prosesində bu araşdırma elmi-nəzəri baza rolunu oynaya bilər. Başqa bir tərəfdən xüsusiləşmənin qeyd edilən konstruksiyalarla sərhədlərinin təyin olunması həmin sintaktik vahidlərin ayrı-ayrılıqda qrammatik təbiətini, tekstoloji, avtosemantik, sinsemantik xüsusiyyətlərini, canlı nitqdəki rolunu, əsas ifadə formalarını, quruluş modellərini və s. üzə çıxara bilər.

Xüsusiləşmənin formalaşması türk dillərində danışanın intensiyasından, maraq və məqsədindən asılıdır. Ona görə də xüsusiləşmə bir sintaktik kateqoriya kimi *"könüllü səciyyə daşıyır"* **(3, s.240, (s.239-250)** yəni onun-cümlə üzvlərinin xüsusiləşib xüsusiləşməməsi ixtiyaridir.

Bu məqaləni yazmaqdan əsas məqsəd xüsusiləşmələr və onunla ümumilik təşkil edən başqa sintaktik vahidlərin əlaqə və münasibətlərini aydınlaşdırmaqdan ibarətdir: xüsusiləşmə ilə qoşulmalar, xüsusiləşmə ilə ellipsis, qoşulma ilə inversiya, qoşulma ilə parselyasiya, xüsusiləşmə ilə əlavələr və s. məsələlərin sərhədlərini, oxşar və fərqli cəhətlərini meydana çıxarmaqdır. Yəni hər bir hadisənin ümumi qurulma texnikasını və mexanizmini aydınlaşdırmaq lazım gəlir. Həmin sintaktik vahidlərin oğuz dillərindən olan türk və Azərbaycan dilində emfaza mexanizmini ortaya qoymaq

vəzifəsini yerinə yetirmək. Emfaza deyərkən, bu yolla verilən məlumatın morfoloji və sintaktik vasitələrlə ayrılması nəzərdə tutulur. **Ayrılma** bu sadalanan sintaktik vahidlər üçün başlıca şərtdir. Bu şərt fikrin aktuallaşdırılması prosesində həmin vahidlərin müəyyən hissəsinin ayrılması, əsas hissədən kənara çıxması və müxtəlif vasitələrlə-intonasiya, ədat, bağlayıcı, modal sözlələr və s. ifadə olunması ilə əlaqədardır.

**Qoşulma xüsusi tip xüsusiləşmə kimi.** Qoşulmalar da türk dillərində özünəməxsus əlamətlərilə seçilən sintaktik hadisədir. Xüsusləşmə kimi qoşulmalar da düşüncə-nitq prosesinin məhsulu olaraq yaranmışdır. Qoşulmalar türk dillərində də, əsas etibarilə söyəmin yenini ifadə edən, hadisə və proseslərin rasional inkişafını şərtləndirən keyfiyyətlərinin xüsusu nəzərə çarpdırılması xüsusunda ortaya çıxır. Bu baxımdan, göründüyü kimi, xüsusiləşmələrə oxşayır. Qoşulmalar əsas hissədən qopub-ayrılan və mətndə müxtəlif bişimdə görünən sintaktik qəliblərdir. Əsas hissə ilə qoşulan hissə arasında davamedici fasilə özünü göstərir və qoşulmalar nitqin emfatik mexanizmini yaradan mühüm vasitə olur. Bu xüsusyyətinə əsasən qoşulmaları xüsusiləşmələrlə qarşılaşdırmaq, aktuallığını üzə çıxarmaq əhəmiyyət daşıyır.

Özbək dilçisi B.Maskapov yazır: *"Qoşulmalar və cümlənin xüsusiləşmiş üzvləri bir sıra hallarda uyğun gəlir. Bu o zaman olur ki, cümlənin xüsusiləşmiş üzvləri cümlənin sonunda yerləşir. Lakin bu iki hadisə bir-birindən fərqlənir*" **(4, c.8 (19 c.)**

*"Həm cümlənin xüsusiləşmiş üzvləri, həm də qoşulma konstruksiyalar cümlədə özünü semantik-sintaktik səviyyədə göstərən hadisələrdəndir. Hər ikisində məna yükü qabarıq nəzərə çarpdırılır. Hər ikisini yaradan şərait və səbəblərdə aktuallaşmanın mühüm rolu vardır. Lakin ümumən bunları əmələ gətirən şərait və səbəblər köklü şəkildə müxtəlifdir, fərqlidir. Qoşulma konstruksiyalardan fərqli olaraq, xüsusiləşmələr qoşmalarla, qoşmalaşmaqda olan sözlərin iştirakı ilə formalaşır və cümlə daxilində bu və ya digər bir üzvün xüsusi fasilə və intonasiya ilə başqa üzvlərdən fərqləndirilməsinə səbəb olur. Qoşulma konstruksiyalar isə cümlə daxilində "unudulmuşun" həmin cümlə söyləndikdən sonra (və ya onunla birlikdə) xatırlanmasıdır. Ona görə də xüsusiləşmə və qoşulma tam fərqli kateqoriyalardır. Lakin eyni zamanda, dediyimiz kimi, hər ikisində aktuallaşma imkanları mövcuddur: xüsusiləşmiş üzv həmin üzvlə nəzərdə tutulan anlayışı dildə qabarıq çatdırmaq məqsədi daşıdığı kimi, qoşulmalar da qəflətən xatırlanıb qoşulanın özül cümlədən daha aydın tələffüzü ilə səciyyələnir"* **(5, s.62 (140 səh.)**

Qeyd edək ki, türk və Azərbaycan dilində həm xüsusiləşmələrin, həm də qoşulmaların mətndə mütləq mövqeyi mövcuddur: Bir qayda olaraq xüsusiləşmədə məna birliyi, intonasiya və fasilə, cümlə üzvlərinin ayrılması nəzərə alınır, qoşulmada da həmişə öncə əsas cümlə, sonra isə qoşulmalar gəlir. Əsas cümləyə qoşulan hissə xüsusi tip intonasiya və fasilə ilə ona birləşir. Həm də xüsusi tip sintaktik əlaqə yaranır ki, bu əlaqə *qoşulma əlaqəsi* adlanır. Türk dillərində bu əlaqə yaxşı öyrənilməyib. Gələcəkdə bu məsələnin kompleks çəkildə tədqiqi mətnlə bağlı müasir mənzərənin öyrənilməsini genişləndirər və dərinləşdirər. Məsələn, nümunələrə diqqət erdək:

(T) Dikkatle bakıyordu. *Bana* (Sabahattin Ali), Etrafıma bakındım. *Garsonu çağırmak için* (Sabahattin Ali), Hep onu aramış, onu beklemiştim. *Hayatım müddetince* (Sabahattin Ali)

(A)...Hər şeydən çox, dağlar yadımda qalıb. *Bir də günəş*(Əkrəm Əylisli. Adalar və ağaclar. Bakı, Gənclik, 1985), Və o qapı mənim təsəvvürümdə məhz bu rəngdə qalıb. *Qəhvəyi-qırmızımtıl rəngdə.* (Ə.Əylisli)

**Parselyasiya xüsusi tip xüsusiləşmə kimi. "Parselyasiya"** termini fransız mənşəlidir, cümlələrin parsellərə, yəni hissələrə ayrılması anlamındadır. Ayrılma əlamətinə malik olduğu üçün parselyasiya xüsusi tip xüsusiləşmədir. *"Parselyasiya nitq fəaliyyətində müçahidə olunan ünsiyyət və məlumat aktı kimi dərk olunur. Nitq fəaliyyətində bütöv cümlə iki yerə ayrılı: bazis-camlə və parselyat. Parselyasiyanın doğurduğu qoşulmalar nitqin zəruri işarələrindəndir Bu işarə məzmunsuz forma deyil, ona görə də onun gercək düçüncə elementləri ilə məzmun qazanmış forma kimi inteqrasiyası elmi xarakterə malikdir. Bu baxımdan parselyasiya və qoşulma bir tərəfdən işarə məzmununun araşdırılması üçün mühüm əhəmiyyətə malikdir, o biri tərəfdən isə kommunukasiya sistemində dilin işarə məzmunu daşıması amili həmişə diqqəti cəlb etmıkdədir" **(6, s.88; s.84-98 (276 səh.)***

Xüsusiləşmədə də ayırıcılıq xüsusiyyəti mövcuddur, yəni xüsusiləşmiş cümlə üzvləri digər xüsusiləşə bilməyən üzvlərdən xüsusi intonasiya, fasilə və durğu ilə ayrılır. Bu eyni xüsusiyyət hər iki hadisəni_ xüsusiləşmə ilə parselyasiyanı həmhedud kateqoriya edir. Misal üçün: ...dadını unuda-unuda yuxuya gedən ağ tuman-köynəkli müsəlman kişilər başlarına yağan mərmilərin gurultusuna yorğan-döşəkdən dik atıldılar. *Gecəyarısı.* Atılıb qalan, yalnız qarğaların və səfil itlərin yaxınlaşmağş cürət etdiyi bu meyit qərargahdakılara görə, mahalın əhalisinə ibrət dərsi, kəndlilərə görə, tələ idi. *Kəndin ortasında.* **(Aqşin Yenisey)**

Bu kateqoriyaların ümumi xüsusiyyəti verilən məlumatın, xəbərin emfatik ayrılması faktıdır. Buna baxmayaraq, həmi kateqoriyalar arasında prinsipial fərqlər də mövcuddur. Bu fərqlər əlbəttə onların mətndəki funksiyalarına aiddir. Belə ki, polipredikativlik xüsusiyyəti xüsusiləşmiş üzvlərin semantikasına xas olan cəhətdir. Amma qoşulmalarda tam şəkildə predikativlik vardır. Xüsusiləşmiş üzvlər daima cümlə üzvü vəsdifəsində çıxış edir, qoşulmalardan isə nitq və mətndə sərbəst ünsiyyət vahidi kimi istifadə olunur. Sonda istifadə edilən xüsusiləşmələrdə prosodik vasitələrdən istifadə də alçalma müşahidə olunur, qoşulmalarda isə prosodiya nüvə cümlənin intonasiyası ilə eyni səviyyəyə enə bilmir. Məsələn, müqayisə et: "Neftçi" komandası, uduzdu, *bütün cəhdlərinə baxmayaraq. Şmürlərində belə dəhşətli səs eşitməmişdilər.* ***O da Qıssa xanımdan...*** *. (Mir Cəlal)*

Bunlar, şübhəsiz, fərqli intonasiyalardır. Xüsusiləşən üzv məna yükünü nəzərə çarpdırmaq üçün xüsusi intonasiya ilə bir qədər ucadan ifadə edilirsə, qoşulma konstruksiyalardan öncə xüsusi və bitmə intonasiyası olur.

**İnversiya xüsusi tip xüsusiləşmə kimi.** İnversiya da xüsusiləşmə kimi semantik-sintaktik hadisələrdən biridir. Q.Kazımov yazır ki, *"sintaktik-semantik funksiya o deməkdir ki, cümlədə sözlərin yeri dəyişdikdə həm cümlənin mənası, həm də sözün sintaktik vəzifəsi dəyişir. Əksinə, söz sırasının üslubi funksiyası o deməkdir ki, cümlədə sözlərin yeri dəyişdikdə sözün sintaktik funksiyası və cümlənin mənası dəyişmir, bu və ya digər üzv aktuallaşdırılaraq daha qabarıq nəzərə çarpdırılır"* **(7, s.167 (500 səh.)**

Həm inversiya və həm də xüsusiləşmə nitqin sintaksisinə aid hadisədir. M.Cəfərzadə yazır ki, *"Azərbaycan dilçiliyində son zamanlara qədər tədqiq olunmadığından müasir dildən və dialektlərdən bəhs edilən əsərlərdə qoşlmaların ayrı-ayrı növləri inversiya, əlavə, xüsisiləşmə, yarınçıq cümlə, təkrar kimi qiymətləndirilmişdir. Ona görə də qoşulmaları həmin kateqoriyalardan fərqləndirmək lazım gəlir"* **(8, s.206 (380 səh.)**

Bəzən inversiya hadisəsini başqa dillərin təsiri nəticəsində yarandığını göstərməyə çalışırlar. Amma inversiyaları heç cür başqa dillərin təsiri hesab etmək olmaz. Bu hadisənin də cümlədə xüsisi mövqeyi vardır. Bu hadisə sintaktik norma çərcivəsində, yəni üslubi planda nəzərdən keçirilmişdir. Müşahidələr də göstərir ki, xüsusiləşmədə olduğu kini inversiyanın da baş verməsinin spesifik qanunauygunluqları xüsusi mətnlərdə tənzimlənmişdir. Qeyd edək ki, həm xüsusiləşmə, həm də inversiya türk dillərində *cümlə üzvləri səviyyəsində* özünü göstərir. Bu fikrin təsdiqi üçün türk və Azərbaycan dilindən aşağıdakı misallarla kifayətlənirik: (T) Kumli yollarda biz uzun müddet dolaştık (Sabahattin Ali), (A) Payızın ortalarında Nabat xalanın oğlu Yaqub əsgərlikdən qayıtdı. (Ə.Əylisli)

Xüsusiləşmiş cümlə üzvləri cümlənin o biri üzvlərindən intonasiya ilə seçilir, inversiya olunmuş üzv isə fərqli intonasiya ilə müşaiyət olunur. Xüsusiləşmiş cümlə üzvü ucadan tələffüz olunur. Sırasını dəyişmiş cümlə üzvü ilə cümlənin yerdə qalan hissəsi arasında xüsusiləşmədə olan fasilə görünmür. İnversiyala cümlə üzvü dərketmədə cümlənin digər hissəsilə birlikdə əmələ gəldiyindən məntiqi baxımdan fərq qoyulmur, xüsusiləşmədəki pauza nisbətən aşağıdır. Xüsusiləşmədəki ayrı-ayrı üzvlər nəzərə çarpdırılır. Xüsusiləşmə və cümlə üzvü öncəki durumuda qalır. Xüsusiləşməyə cümlənin işində rast gəlmək olur. Xüsusiləşən zaman müəyyən dil vasitələri köməyə gəlir. Xüsusiləşmədə, inversiya da cümlə üzvlərinə aiddir.

Beləliklə, bir sıra sintaktik kateqoriyalar, o cümlədən cümlə üzvlərinin xüsusiləşməsi dilin sintaktik quruluşunda, emosional-üslubi təbəqədə, mətn proqressiyasında və rasional-nisbi fikrin təzahüründə əsaslı rol oynayır. Bu kateqoriyalar artıq dil faktı kimi əmələ gəlmiş, mətndə aktuallaşma məqsədi daşımaqdadır. Bu kateqoriyalar əslinə qalanda danışıq dilinin əlamətlərini inikas etdirir, yazılı dilə köh etibarilə canlı xalq dilindən gəlir. Bunların hər biri emosional təsir gücünün üstünlüyü ilə fərqlənirlər. Bunlar nitq və fikirdəki naqisliyi tamamlayır, obrazlılığı yüksəldir Həmcinin bu

həmhüdud kateqoriyalar rasional düşüncəni aktuallaşdırmaqla sintaktik bütövlər arasında münasibət qurur, yeni fikirlərə keçid almaq üçün, əlaqələrin inkişafından yana bir zəmin və assosiasiya hazırlayır. Həmhüdud kateqoriyalar nitqi sadələşdirir, cümlədəki lirizmi gücləndirir, nitqə emosionallıq verir, onun təsir gücünü artırır. Beləliklə, əsasən bu həmhüdud kateqoriyaları formalaşdıran şərait və səbəblərdə aktuallaçma əsas amil kimi çıxış edir. Buna baxmayaraq, yaranma şəraitndə ciddi fərqlər də müşahidə olunmaqdadır. Cümlə üzvlərinin xüsusiləşməsi və parselyasiya hadisəsi yalnız ilkin ümumi formalaşma şərt və səbəbinə görə yox, eləcə də xüsusiləşmiş və hissələrə parçalanmış cümlə üzvləri olaraq bir çox ümumi əlamətlərilə xarakterizə olunur. Xüsusiləşmiş üzv və parselyat konstruksiyalar ziddiyyət, səbəb-nəticə, güzəşt və s. münasibətlərdə distant mövqelərdə yerləşirlər.

## ƏDƏBİYYAT


1.Adilov M., Verdiyeva Z., Ağayeva F. İzahlı dilçilik termimləri lüğəti. Bakı, "Elm və təhsil", 2020
2.Виноградов В.В. Некоторые вопросы синтаксиса. «ВЯ», 1954, № 1
3.Abdullayev Ə. Xüsusiləşmə. _ Müasir Azərbaycan dili. III, sintaksis, Bakı, "Elm" nəşriyyatı, 1981
4.Маскаков Б. Присоединительные конструксия в узбекском языке. Автореф. дисс. …канд. филол. наук. Ташкент, 1985
5.Qədimova H. Müasir Azərbaycan dilində qoşulma konstruksiyalar. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2005
*6.Kazımov İ. Sintaksis və nitq mədəniyyəti._ Müasir Azərbaycan dili və nitq mədəniyyəti məsələləri (məqalələr toplusu). Bakı,"Mdizayn" MMC, 2022*
7.Kazımov Q. Seçilmiş əsərləri. 10 cilddə, Y cild, Bakı, "Nurlan", 2008
8.Cəfərzadı M. Azərbaycan dilinin dialekt sintaksisi. Təkmilləşdirilmiş yeni nəşri. Bakı, "Elm və təhsil", 2016


***Doktorant**

## MƏNBƏLƏR


Mir Cəlal. Seçilmiş əsərləri. I cild, Bakı, "Qərb-Şərq", 2013, 498 səh.
Əkrəm Əylisli. Adalar və ağaclar. Bakı, Gənclik, 1985, 320 səh.
Sabahattin Ali. Kürk Mantolu Madonna. Roman. YKY İstanbul, 2008, 160 səh.
Aqşin Yenisey. Ertəsi gün öldüm. Bakı, "Çapar yayınları", 2023, 184 səh.


**Ayten Museyibli**

## SPECIALIZATION AND COTERMINOUS CATEGORIES IN TURKIC LANGUAGES (IN A COMPARATIVE ASPECT)

The article identifies the conditions and reasons that distinguish specialized member sentences in Turkish and Azerbaijani from conjunctions, parcellation, inversion, addition, conversion, etc. It is asserted that these coterminous categories (conjunctions and specialized members of the sentence), first of all, serve for the emphatic separation of the given information. The article shows the fundamental distinctions between these categories. These differences are determined by their functions. That is, while polypredicativity is inherent in the semantics of specialized members, parcellation and conjunctions express predicativity in their entirety.

***Keywords:*** *specialization, coterminous categories, connections, parcellation phenomenon, inversion.*

**Айтен Мусеибли**

## СПЕЦИАЛИЗАЦИЯ И СМЕЖНЫЕ КАТЕГОРИИ НА ТУРЕЦКОМ ЯЗЫКЕ (В СРАВНИТЕЛЬНОМ АСПЕКТЕ)

В статье рассмотрены специализированные членские предложения в турецком и азербайджанском языках без соединения, парцелляции, инверсии, сложения, конверсии и т.д. определяются различающие условия и причины. Подтверждено, что эти пограничные категории (сочетание и специализированные члены предложения) служат, прежде всего, для выразительного разделения данной информации. В статье показаны принципиальные различия между этими категориями. Эти различия определяются их функциями. То есть, если для семантики специализированных членов характерна полипредикативность, то парцелляция и связи выражают предикативность в целом.

***Ключевые слова:*** *специализация, ограниченные категории, объединения, событие парцелляции, инверсия.*

***Filologiya elmləri doktoru Akif İmanlı tərəfindən təqdim edilmişdir.***

**İlk daxilolma tarixi: 05.11.2025**
**Son daxilolma tarixi:20.11.2025**